

Şahinə Könül Ağstafa Rayon Mədəniyyət və Turizm Şöbəsinin qabaqcıl əməkdaşlarındandır. O həm də bir-birindən gözəl şeirlər müəllifidir. Şairənin "Çağırsam kim görən eşidər məni..." şeirlər kitabı işıq üzü görüb. Maraq doğuracağını nəzərə alaraq Könülün bir neçə şeirini dəyərli oxucularımızın diqqətinə veririk.

# Şahinə Könül

## Su ömrü

*Kimə deyim, kimdən umum haqqını,*
*Sevindirə biləmmədim bu ömrü.*
*Yaralanmış bir budağın köksünə,*
*Gözlərimdən axıtmışam su ömrü.*

*Səhralarda çat-çat olub həvəsi,*
*Yazıq ömrüm kor ərəbin dəvəsi.*
*Öz əlimlə hər namərdin, nakəsin*
*Hədəfinə tuş etmişəm qu ömrü.*

*Solan güllər saraldıbdı rəngini,*
*Olan gündən can yanğısı səngimir.*
*Qara günlər qaraldıbdı rəngini,*
*Deyən də yox, yağışa tut, yu ömrü.*

## Şeirimi

**Ömür ölüm yuxusu,**
**Keçib getdi çoxusu.**
**Ayılanlar oxusun**
**Hər səhər bu şeirimi.**

**Özündən çıxan ruham,**
**Özünü yaxan aham.**
**Savabam, ya günaham?**
**Bilən yoxdu sirrimi.**

**Səndə, məndə, ondayam,**
**Ancaq bircə dondayam.**
**Əvvəldəyəm, sondayam?**
**Yanılmışam yerimi.**

## Ağlayır

*Xalq şairi N.Həsənzadənin*
*Poylu beşiyində görüşü zamanı*

İndi bir Ananın təndiri üstə,
Bir şair başını qoyub ağlayır.
Bir vaxt bu təndirdə bişən çörəyin,
Hardansa ətrini duyub, ağlayır.

Gəl ay Nabat xala, harda qalmısan,
Ərköyün oğlunu kiridəmmirik.
Ölən xatirələr dirilir bir-bir,
Ölən Anaları dirildəmmirik.

Niyə əzab yolu uzundu ömrün,
Nəyiymiş taleyin qəsdi-qərəzi?
Gəl ay Nabat xala, gör kimdi oğlun,
Yalan deməyibmiş qaraçı qızı.

Görə bilmədiyin bugün səninđir,
Bir ellik bir toyun-düyünün gəlib.
Bir azca sevinsin qabar əllərin,
Bakıdan Poyluya ağ günün gəlib.

Gəl ay Nabat xala, ölüm nədir ki,
Ana məhəbbəti güclüdür ondan.
Bilirəm orda da xeyli zamandır,
Nigaran qalmısan sən Nərimandan.

Gəl özün qarşıla şair oğlunu,
Bugün bir Ananın yeri boş qalıb.
Beşikdən başlanan şeirin yolunu,
Bir xalqın şairi Poyludan salıb.



## Məni

İndən belə gəzərsiniz,
Gəzərsiniz, dostlar, məni.
Yaz gələndə laləlikdən
Üzərsiniz, dostlar, məni.

Bağlayarsız dəstə-dəstə,
Ağlayarsız dəstə-dəstə.
Gətirib öz qəbrim üstə
Düzərsiniz, dostlar, məni.

Bir bulağam, gəlin hər gün,
Bir badə doldurun için.
Dostların cansağlığıyçün
Süzərsiniz, dostlar, məni.

## Hardadı

Hardadı dünyanın düz adamları,
Düzlərin üstündə göz adamları?
Ocaq adamları, köz adamları
Yamanca seyrəlib, seyrəlib, Allah.

Qırılıb dünyanın yuxu damarı,
Yuxusuz qoymuşuq çox adamları.
Qaralıb dünyanın ağ-ağ şamları,
Odalar göynəyib, göynəyib, Allah.

Bu da bir ömürdü yaşayır Könül,
Birtəhər yükünü daşıyır Könül.
Bir "Cəngi" çaldırın, üşüyür Könül,-
Ürəyim kövrəlib, kövrəlib, Allah.

## Bənövşə dərdim

*Yenə gözlərimdə yetim bir istək,*
*Yenə də göründü bənövşə dərdim.*
*Anamın qoynundan çıxandan bəri,*
*Bənövşə qoxladım, bənövşə dərdim.*

*Sağım uçurumdu, solum qiyamət,*
*Ömrümün yolları gör hardan keçir.*
*Tənhalıq, yetimlik, əzab-əziyyət,*
*Tərs kimi hamsı bir qatardan keçir.*

*Yollar ayrıcında tənha bir çinar,*
*Qalıb qasırğanın qurd davasında.*
*Kimsəsiz taleyim kimdən nə umar?*
*Hərə öz hayında, öz havasında.*

*Bəxtimin boz üzü mənə tanışdır,*
*Yanıb Kürə qaçsa, Kür quruyandı.*
*Yanılıb bir azca məni danışdır,*
*Bir də görəcəksən külün də yandı.*

*Bu imiş o ömür, o gün deyilən,*
*Mən elə bilirdim başqadır həyat.*
*Mənəmmiş o ömrü, günü yeyilən.*
*Mənəmmiş, mənimlə baş qatır həyat*

*Günəşi gizlənir, baharı səkir,*
*Taleyim qar altda bənövşəlikdi.*
*Görəsən bir kimsə biləcəkmi ki,*
*Dünyada nə çəkdi, bənövşə çəkdi.*

## İçimdə

**İçimdə heç nə yoxdu,**
**Allah bezib içimdən.**
**İçimdə hər şey çoxdu,**
**Allah azıb içimdə.**

**Görüncə öz yarının**
**Şeytanla bazarını.**
**İçimin məzarını,**
**Allah qazıb içimdə.**

**Açılmır sirri-xuda,**
**Özünə sirdi Xuda.**
**Bu şeiri də qorxudan**
**Allah yazıb içimdə.**

**Laxlayıbdı özülü,**
**Özüldən qan süzülür.**
**Dözəmməyib özünü**
**Allah asıb içimdə.**